AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi

# MƏHSUL İSTEHSALINA, XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİNƏ ÇƏKİLƏN XƏRCLƏRİN TƏRKİBİNİN ÖYRƏNİLMƏSİ ÜZRƏ BİRDƏFƏLİK STATİSTİKA MÜAYİNƏSİNƏ DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**17.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
nuru@azstat.org, + 994 12 538 74 50

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş...................................................... 3

2. Aktuallıq.................................................................................................. 5

3. Dəqiqlik.................................................................................................... 8

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 8

5. Bərabər giriş və aydınlıq........................................................................... 9

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik.............................................. 10

7. Çıxış keyfiyyət komponentləri arasında seçim.......................................... 10

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 10

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük...................................... 11

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik........................................................... 12

11. Yekun...................................................................................................... 12



Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: nuru@azstat.org, +994 12 538 74 50

## 1. Statistik prosesə və məhsullara giriş

***Müayinənin qısa təsviri***

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iqtisadi balanslar sektoru məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansının tərtib edilməsi üçün beş ildə bir dəfə iqtisadiyyatın bütün sahələri üzrə məhsul istehsalına, xidmətlərin göstərilməsinə çəkilən illik xərclərin tərkibinin birdəfəlik statistik müşahidəsini təşkil edir.

Bu müşahidə vasitəsilə məhsulun və xidmətlərin istehsalına çəkilən xərclərin tərkibi (əsas və qeyri-əsas fəaliyyət üzrə ) və hesabat dövründə əsas vəsaitlərin əldə edilməsinə və əsaslı təmirinə çəkilmiş xərclər haqqında müayinə anketlərinə əsasən məlumatlar əldə edilir. Bu məlumatlar əsasında müəssisə və təşkilatların istehlakının strukturu haqqında daha ətraflı məlumatlar əldə etməklə, “Ehtiyat və istifadə” və “Xərclər və buraxılış” cədvəlləri qurulur. Cədvəllər ölkə iqtisadiyyatının strukturunu, onun sahələri arasında mövcud olan əlaqələri, ümumi daxili məhsulun və digər mühüm makroiqtisadi göstəricilərin daha dəqiq hesablanmasını təmin edir.

Balansın məlumatları məhsul növlərinin geniş nomenklaturası üzrə istehsal olunmuş məhsul və xidmətlərin istehlakın və yığımın bütün istiqamətləri üzrə istifadəsinin, maddi ehtiyatların və xərclərin strukturunun, yaranmış əlavə dəyərin bölüşdürülməsinin iqtisadi təhlili, müxtəlif makroiqtisadi modellərin qurulması və iqtisadi siyasətin həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

***Müşahidə vahidləri***

2011-ci il üzrə “Ehtiyat və istifadə” cədvəllərinin qurulması üçün təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq iqtisadiyyatın bütün sahələri üzrə ölkədə fəaliyyət göstərən 8912 müəssisə və təşkilat müşahidəyə cəlb olunmuşdur. Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iş planına uyğun olaraq yerli statistika orqanlarının əməkdaşları üçün təlim seminarları təşkil olunmuş və müşahidəyə cəlb edilmiş müəssisələrin müşahidə başlamazdan əvvəl bir daha aktuallaşdırılmışdır. Bu da fəaliyyətsiz müəssisələrin vaxtında aşkar edilməsinə və müşahidə vahidlərinin 97%-nin müayinənin tələblərinə cavab verən məlumatlar təqdim etməsinə gətirib çıxarmışdır.

***Əhatə***

Məhsul istehsalı və xidmət göstərilməsinə çəkilən xərclərin tərkibinin öyrənilməsinə

dair birdəfəlik statistik müayinə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi şəxs statusuna malik olan müəssisə və təşkilatlar üzrə aparılmışdır.
Müayinəyə cəlb olunmuş statistik vahidlərin 3639-u iri, bu da müşahidə seçiminin 40,8 faizi qədər, 5273-ü (müvafiq olaraq 59,2 faizi) isə orta və kiçik statistik vahidlər təşkil etmişdir, ondan: iqtisadi fəaliyyət növlər üzrə sənaye sahəsi üzrə 1146 müəssisə və təşkilatlar, bu da müşahidə seçiminin 12,9 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 644 müəssisə və təşkilatlar (müvafiq olaraq 7,2 faiz), tikinti sahəsi üzrə 882 müəssisə və təşkilatlar (9,9 faiz), sosial və xidmət sahələri üzrə isə 6240 müəssisə və təşkilatlar (70,0 faiz) müayinəyə cəlb edilmişdir.
Müayinə anketlərinə daxil edilmiş suallar diqqətlə araşdırılmış, əvvəlki müayinə zamanı istifadə edilmiş anketdə olan iqtisadi cəhətdən az əhəmiyyət kəsb edən bəzi suallar daha aktualları ilə əvəz edilmişdir. Məhsul növləri təsnifatının qrupları səviyyəsində müəssisələrin məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə etdikləri mallar üzrə çəkdikləri xərclər barədə suallar müayinə blanklarına daxil edilmişdir.
Bundan başqa, müayinə anketlərinə işçilərin əmək haqqı, sosial ayırmalar, əsas vəsaitlərin aşınması, vergilər və digər ödənişlər, əsas vəsaitlərin növləri üzrə hesabat dövrü ərzində maddi əsas vəsaitlərin əldə edilməsinə çəkilmiş xərclər, əsas vəsaitlərin əsaslı təmiri üzrə xidmətlərin dəyəri, silinmiş əsas vəsaitlərin bazar qiyməti ilə dəyəri və silinmiş əsas vəsaitlərin yaşı barədə suallar daxil edilmişdir.

***Əsas göstəricilər:***

- Məhsul (xidmət) istehsalına çəkilən xərclər (əsas və qeyri-əsas fəaliyyətlər üzrə);
- Xammal və materialların, yanacağın, alınmış yarımfabrikatların və komplektləşdirici məmulatların qalıqları (ilin əvvəlinə və ilin sonuna);
- Əmək ödənişləri;
- Sosial ayırmalar;
- Vergilər;
- Əsas vəsaitlər.

***Müayinə anketi***

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 3 noyabr 2011-ci il, 37/8 №-li kollegiya qərarı ilə təsdiq edilmiş 1-İMT №-li “Məhsulun (xidmətlərin) istehsalına çəkilən xərclər”, 1-ƏF №-li “Hesabat dövründə əsas vəsaitlərin əldə edilməsi və əsaslı təmirinə çəkilən xərclər haqqında” və 1-A №-li “Qeyri-əsas fəaliyyət üzrə məhsulun (xidmətlərin) istehsalına çəkilən xərclərin tərkibi” haqqında müayinə blankları müvafiq dövr (illik) üçün mühasibat uçotunun ilkin sənədlərindən, analitik

mühasibat uçotu göstəricilərindən, anbar uçotu vərəqələrindən, kalkulyasiyalardan, qalıqların dəyişməsi, xammal və materialların daxil olması və istifadə edilməsi barədə məlumatlardan istifadə edərək doldurmaları üçün müayinəyə cəlb olunmuş müəssisə və təşkilatlara göndərilmişdir.
Müayinəyə cəlb olunmuş statistik vahidlərin işini asanlaşdırmaq məqsədilə eyni nömrəli kollegiya qərarı ilə təsdiq olunmuş məhsul istehsalına, xidmətlərin göstərilməsinə çəkilən xərclərin tərkibini müəyyən etməyə imkan verən məhsul və xidmətlərin siyahısı və müayinə anketlərinin doldurulmasına dair metodoloji izahat da müayinə blanklarına əlavə edilmişdir.

## 2. Aktuallıq

"Ehtiyat və istifadə" cədvəllərinin qurulması Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dünya Bankı və Avropa Birliyinin Statistika Bürosu tərəfindən qəbul edilmiş MHS 1993-ün tələblərinə əsasən aparılır. Son onillikdə iqtisadi statistikada beynəlxalq standartlar sürətlə inkişaf etdiyindən, Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi və Aİ-nin dörd üzv ölkəsindən olan ekspertlərin iştirakı ilə 15 noyabr 2009-12 noyabr 2011- ci illərdə "Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indekslərinin Avropa standartlarına uyğunlaşdırılması sahəsində Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinə dəstək" Tvinninq layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində həyata keçirilən təlim səfərləri zamanı Çexiya Statistika İdarəsində "Ehtiyat və istifadə" cədvəllərinin qurulması prinsipləri öyrənilmişdir.

2011-ci ildə aparılmış müayinədə Avropa İqtisadi Birliyinin CPA 2008 (məhsul növləri təsnifatı) təsnifatının bazasında hazırlanmış milli "Məhsul növləri təsnifatı"nın üçüncü versiyasına uyğun olaraq 95 adda məhsul və xidmət qrupu üzrə müşahidə aparılmışdır.

Müayinənin nəticələrinə və digər inzibati mənbələrdən alınan məlumatlara əsasən "Mal və xidmət ehtiyatları", "Mal və xidmətlərin istifadəsi" (əsas və istehlakçı qiymətlərilə), "Məhsul istehsalı, xidmət göstərilməsi və onların bölgüsünün balansı" (istehlakçı qiymətləri ilə), "Məhsul istehsalı, xidmət göstərilməsi və onların bölgüsünün balansı"(əsas qiymətlərlə) cədvəlləri və eləcə də ticarət və nəqliyyat xidmətlərinə görə əlavələrin, vergilərin və idxal olunmuş mal və xidmətlərin istifadəsi cədvəlləri qurulur. "Mal və xidmətlərin ehtiyatları" cədvəlinin ümumi

sxemi aşağıdakı kimidir:

***Cədvəl №1***

| | | Sahələrin buraxılışı (əsas qiymətlərlə) | | | İdxal | Mövcud ehtiyatlar, əsas qiymətlərlə | Məhsula görə vergilər (+) | Məhsula görə subsidiyalar (-) | Əlavələr | | Mövcud ehtiyatlar (istehlakçı qiymətlərilə) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Bazar istehsalı | Qeyri-bazar istehsalı | Sahələr üzrə cəmi | | | | | Nəqliyyat | Ticarət | |
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| Məhsul və xidmətlər | 1 | | | I Hissə | | | | II Hissə | | | |
| Cəmi | 2 | | | | | | | | | | |

"Mal və xidmətlərin ehtiyatları" cədvəlinin I hissəsində bazar və qeyri-bazar buraxılışlarının tərkibi və mal və xidmətlərin qrupları üzrə idxal əks etdirilir.

Cədvəlin II hissəsində isə məhsula vergi və subsidiyalar, ticarət və nəqliyyat əlavələri göstərilir.

“Mal və xidmətlərin istifadəsi” cədvəlinin sadələşdirilmiş sxemi aşağıdakı kimidir:

***Cədvəl №2***

| | | Aralıq tələbat | | | Son istehlak | Ümumi yığım | İxrac | Cəmi əmtəə və xitmətlərdən istifadə edilmişdir |
|---|---|---|---|---|---|---|---|---|
| | | Bazar isteh-salı | Qeyri-bazar isteh-salı | Sahələr üzrə cəmi | | | | |
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Aralıq istehlak | 1 | | I Kvadrant | | | II Kvadrant | | |
| Əlavə dəyərin komponentləri | 2 | | III Kvadrant | | | | | |
| Təsərrüfat sahələrinin buraxılışı, əsas qiymətlərlə | 3 | | | | | | | |

Mal və xidmətlərin istifadəsi” cədvəli öz iqtisadi məzmununa görə üç hissədən (kvadrantlardan) ibarətdir.

I kvadrant əmtəə qrupları və iqtisadiyyatın sahələri üzrə aralıq istehlakı xarakterizə edir.

II kvadrant əmtəə və xidmətlərin son istifadəsinin istiqamətlərini əks etdirir (son istehlak, ümumi yığım, ixrac).

III kvadrant iqtisadiyyatın sahələri üzrə əlavə dəyərin komponentlərini xarakterizə edir (əməyin ödənilməsi, xalis qarışıq gəlir, xalis mənfəət, əsas kapitalın istehlakı, istehsala xalis vergilər).

“Mal və xidmətlərin istifadəsi” cədvəlinin I və II kvadrantlarının hər bir sətri müəyyən əmtəə və xidmət qrupunun aralıq (“təsərrüfat” sahələri üzrə) və son tələbata (istifadənin kateqoriyaları üzrə) istifadəsini xarakterizə edir. I və III kvadrantların hər bir sütunu “təsərrüfat” sahələrində aralıq istehlakın (əmtəə və xidmət qrupları üzrə) və əlavə dəyərin komponentlərinin strukturunu əks etdirir.

## 3. Dəqiqlik

Yekun məlumatların iqtisadi əhəmiyyətini nəzərə alaraq, vaxtında və keyfiyyətli məlumatlar əldə etmək üçün müəssisə və təşkilatlardan ilkin məlumatların onlayn rejimində qəbul edilməsi üçün hazırlanan proqramda "Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti, maliyyə nəticələri və əmlakı haqqında" 1-Müəssisə №-li illik hesabat formasının II və VIII bölmələrinin müvafiq məlumatları ilə tutuşdurulması üçün nəzarət qoyulmuşdur.

Bundan başqa, şöbənin əməkdaşları hesabatları onlayn rejimində yoxlamış, aşkar edilən səhvlər barədə müəssisə və təşkilatlara, həmçinin yerli statistika orqanlarına məlumat vermişlər.

### *D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)*

*Cədvəl № 3*

| | 2006 | 2011 |
|---|---|---|
| Məlumatların toplanması üçün təyin olunmuş statistik vahidlərin sayı | 6184 | 8912 |
| Sorğuya cavab vermiş statistik vahidlərin sayı | 5894 | 8644 |
| Sorğuya cavab vermiş statistik vahidlərin xüsusi çəkisi (%) | 95,3% | 97,0% |

### *D5. Sualın cavablandırma səviyyəsi*

*Cədvəl № 4*

| | 2006 | 2011 |
|---|---|---|
| Natamam məlumatlar təqdim etmiş statistik vahidlərin sayı | 363 | 381 |
| Natamam məlumatlar təqdim etmiş statistik vahidlərin xüsusi çəkisi (%) | 6,2% | 4,4% |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "2012-ci il üçün statistik işlər proqramı"nın "Milli hesablar və makroiqtisadi göstəricilər bölməsi" nin 22-ci bəndində 2012-ci ilin 14 iyun tarixinədək ölkə üzrə məhsul və xidmətlərin istehsalı

və bölüşdürülməsinin sahələrarası hesabat balansını tərtib etmək üçün "Məhsul və xidmətlərin istehsalına çəkilmiş xərclərin tərkibinə dair" seçmə müayinənin təşkili və keçirilməsi nəzərdə tutulmuşdur.

Proqrama uyğun olaraq 2012-ci ilin may ayında müayinə təşkil olunaraq keçirilmiş və müşahidəyə cəlb edilmiş statistik vahidlər tərəfindən cavablandırılmış müayinə anketləri 14 iyun 2012-ci il tarixinədək Dövlət Statistika Komitəsinin rəsmi veb-səhifəsində onlayn rejimində qəbul edilmiş və nəticələr alınmışdır. Hesabatların təqdim olunmasında gecikmələr müşahidə olunmamışdır.

## 5. Bərabər giriş və aydınlıq

Müayinənin yekunlarına əsasən ölkə iqtisadiyyatında mal və xidmətlərin ehtiyatları, mal və xidmətlərin istifadəsi (istehlakçı və əsas qiymətlərlə), məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balansı ( əsas qiymətlərlə), istehlakçı qiymətlərlə mal və xidmətlərin istifadəsi cədvəlinin analitik göstəricilərinin əks olunduğu "Azərbaycanda məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı" məcmuəsi dərc olunaraq istifadəçilərə təqdim olunur. Bu göstəricilərin hazırlanmasında BMT-nin nəşr etdirdiyi " Ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi və onların analizi" adlı təlimatdan və Milli hesablar sistemi 93 və MHS-2008-in tövsiyələrindən istifadə edilir. BMT-nin nəşrini http://www.unstats.un.org/uncd/publication/SeriesF/SeriesF_74E.pdf və ya http://www.unstats.un.org/uncd/pubs/gesgrid.asp?id=68 linklərindən əldə etmək olar. Bundan əlavə müayinə blankları və onlara dair metodoloji izahlar Komitənin veb-səhifəsində yerləşdirilmişdir http://www.stat.gov.az/f_st_relat/az/002.Shtml .

### *BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı*

Müayinənin məlumatları əsasında kağız formasında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən hazırlanmış "Azərbaycanda məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı" məcmuəsi 100 nüsxədə kağız daşıyıcısında dərc olunur ki, onlardan:

- 42 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
-28 nüsxə Dövlət Statistika Komitəsinin rəhbərliyinə və digər şöbələrə;
-30 nüsxə digər istifadəçilərə verilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı MHS-93-ün prinsiplərinə uyğun olaraq və Avropa İqtisadi Birliyinin CPA 2008 təsnifatının bazasında hazırlanmış milli Məhsul növləri təsnifatının strukturuna uyğun olaraq müəyyən edilmiş məhsul və xidmət növləri əsasında hazırlanır. Bundan başqa müəyyən cədvəllərin hesablanmasında əksər Avropa ölkələrində tətbiq olunan və ölkə iqtisadiyyatına uyğun olan təcrübələrdən də istifadə edilir. Belə ki, "Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymət indekslərinin Avropa standartlarına uyğunlaşdırılması sahəsində Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinə dəstək" Tvinninq layihəsi çərçivəsində həyata keçirilən təlim səfərləri zamanı Çexiya , Litva, Almaniya, Bolqarıstan Statistika İdarələrinin mütəxəssislərinin " Ehtiyat və istifadə" cədvəllərinin qurulmasında əldə etdikləri nailiyyətlər öyrənilmiş və Çexiya Statistika İdarəsinin bu sahədəki təcrübəsindən istifadə etmək qərara alınmışdır.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iqtisadi balanslar sektoru BHM-nin Milli hesablar statistikası məlumatlarının işlənməsi şöbəsi ilə birlikdə statistik müayinənin aparılması planlaşdırılan andan başlayaraq bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və onlayn rejimində xüsusi proqram vasitəsilə mümkün olan digər mənbələrlə müqayisə edilərək məlumatların dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma aspekti üzrə müayinə ilə bağlı bütün işlər Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iş planına uyğun olaraq həyata keçirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə müayinənin nəticələri əsasında hazırlanmış "Azərbaycanda məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı" məcmuəsi nəşr olunduqdan sonra müəyyən olunmuş siyahı üzrə məlumatları istifadəçilərə çatdırır və nəşrin elektron versiyası Komitənin rəsmi veb-səhifəsində yerləşdirilir.
Mütəmadi olaraq əsas istifadəçilərdən olan İqtisadi İnkişaf Nazirliyi, Mərkəzi Bank,

İqtisad Universiteti, Maliyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssisləri ilə fikir mübadiləsi aparılır və onlar tərəfindən tövsiyə olunan hər bir təklif araşdırılaraq nəticələrin yaxşılaşdırılmasına xidmət edən təkliflər tətbiq olunur. Sonuncu dəfə Dövlət Statistika Komitəsinin 28 dekabr 2011-ci il tarixli, 38/7 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş "2012-ci il metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na əsasən şöbə tərəfindən 5 oktyabr 2012-ci il tarixində istifadəçilər üçün seminar keçirilmişdir.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

2006-cı ildə "Məhsul və xidmətlərin istehsalına çəkilmiş xərclərin tərkibinə dair" seçmə müayinənin təşkili və keçirilməsi ilə bağlı bütün proseslər yerli statistika şöbələrinin iştirakı ilə əsasən poçt şöbələrinin xidmətlərindən istifadə etməklə kağız daşıyıcıları vasitəsi ilə həyata keçirilmişdir. Hər hansı bir sual yarandıqda isə telefon vasitəsilə yerli statistika şöbələrinə və ya Dövlət Statistika Komitəsinə müraciət etməli olan müşahidə vahidləri əlavə vaxt və maliyyə vəsaiti sərf etməli olurdular. Müayinəyə dair yekun məlumatlar müəssisə və təşkilatlardan kağız formasında əldə edilir, şöbənin əməkdaşları tərəfindən riyazi və məntiqi yoxlama aparıldıqdan sonra elə şöbənin əməkdaşları tərəfindən də fərdi kompüterlərə yazılırdı. Bu da müəyyən gecikmələrə, respondentlərə və şöbənin əməkdaşlarına düşən yükün artmasına səbəb olurdu.

2011-ci il üçün iqtisadiyyatın bütün sahələri üzrə məhsul istehsalına, xidmətlərin göstərilməsinə çəkilən illik xərclərin tərkibinin birdəfəlik statistik müşahidəsinin təşkili və həyata keçirilməsi zamanı informasiya texnologiyalarının imkanlarından geniş istifadə edilmişdir. Belə ki, müayinənin keçirilməsi ilə bağlı yerli statistika orqanları, müəssisə və təşkilatlarla aparılan bütün yazışmalar elektron poçt vasitəsilə aparılmış, sorğu anketləri və onlara dair izahlar Dövlət Statistika Komitəsinin rəsmi veb-səhifəsində Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinə aid olan bölmədə yerləşdirilmişdir. Bundan əlavə aktuallığını itirmiş və ya digər inzibati mənbələrdən əldə edilməsi mümkün olan sorğular anketdən çıxarılmış və ya daha aktualları ilə əvəz edilmişdir.

Müayinə anketləri müşahidə vahidləri tərəfindən Komitənin rəsmi veb-səhifəsində onlayn rejimində yerləşdirilən xüsusi proqram vasitəsilə qəbul edilmişdir. Bu da müşahidə vahidlərinin və şöbənin əməkdaşlarının vaxtına qənaət etməyə, həm də vaxtında və keyfiyyətli məlumatlar əldə etməyə imkan vermişdir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanununun VI fəslinin 16-cı maddəsinə əsasən statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir.

İlkin məlumatlar onlayn rejimində fərdi kompüterlər vasitəsilə əldə edildiyi üçün təhlükəsizliyi təmin etmək məqsədilə yalnız Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin ilkin məlumatlara baxmaq (düzəliş etmək üçün icazə yoxdur) imkanı vardır. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsi sahələrarası hesabat balansının daha keyfiyyətli qurulması məqsədi ilə mal və xidmətlərin uçotunun dəqiq və mükəmməl aparılmasının keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi, ilkin məlumatların mümkün olan daha çox mənbələrin məlumatları ilə yoxlanılması məqsədəuyğun hesab edilir. Məlumatların balanslaşdırılması prosesinin asanlaşdırılması məqsədilə beynəlxalq təcrübədə istifadə olunan xüsusi “RAS” proqramından istifadənin mümkünlüyü araşdırılır, həmçinin “Ehtiyat və istifadə” cədvəllərinin illik dövriliklə tərtib edilməsi sahəsində işlər aparılır.